AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**VÜSALƏ SƏRDAR QIZI ƏLİYEVA**

# TƏLİM PROSESİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN FƏALLIĞININ YÜKSƏLDİLMƏSİNDƏ ƏMƏKDAŞLIQ PRİNSİPİNDƏN İSTİFADƏ ÜZRƏ İŞİN SİSTEMİ

5804.01-Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

BAKI – 2015

Dissertasiya işi Azərbaycan Müəllimlər İnstitutunun Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **İntiqam Hilal oğlu Cəbrayılov**
*pedaqogika üzrə elmlər doktoru*

**Rəsmi opponentlər**: **Sərdar Musa oğlu Quliyev**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Oqtay Allahverən oğlu Abbasov**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Pedaqogika və psixologiya kafedrası

Müdafiə «__13__» __10___ 2015-ci il tarixdə saat ____ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 dissertasiya Şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan:** Az- 1000, Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «____» ___________ 2015-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının
elmi katibi: K.R.Quliyeva
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Müasir cəmiyyətin tələbi olan hərtərəfli şəxsiyyət yetişdirilməsi məsələsi həm ictimaiyyət, həm də təhsil sistemi qarşısında duran ən vacib məqsəddir. Pedaqoji prosesdə həm savadlı, həm də insani keyfiyyətləri özündə birləşdirən şəxsiyyət yetişdirilməsi müəllimin əməkdaşlıq prinsipinə nə dərəcədə əməl etməsindən çox asılıdır. Ulu öndərimiz Heydər Əliyev demişdir: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram, hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır"[1].

Kiçikyaşlıların hərtərəfli inkişafının əsas xüsusiyyətlərindən biri də insanlararası münasibətlərə sağlam şəkildə yiyələnmələridir. Şagirdlər arasında inam, dözüm, səbr, qarşılıqlı hörmət məhz ibtidai siniflərdən formalaşmağa başlayır. Bu münasibətlərin sağlam qurulması ibtidai sinif müəllimindən və valideynlərdən asılıdır. Sağlam münasibətlər sisteminin hökm sürdüyü təlim prosesində kiçikyaşlıların öyrənmə və mənimsəmə fəallığı da yüksək olur. Bu problem bütün dövrlərdə aktual hesab edilmişdir. Müstəqil Azərbaycan dövlətinin indiki dövründə də bu problem daha böyük aktuallıq kəsb edir.

İbtidai siniflərdə əməkdaşlıq prinsipinə əməl etmək daha vacibdir. Çünki təlim prosesində kiçik yaşlıların qayğıya, səmimiyyətə, özünə inama daha çox ehtiyacı vardır. Hər bir şagird şəxsiyyətinə hörmətlə yanaşıldığını, müəllim tərəfindən qiymətləndirildiyini, ona böyük qayğı göstərildiyini duyarsa, təlim prosesində yüksək həvəslə iştirak edər.

Əməkdaşlıq prinsipi müəllimdən tələb edir ki, şagirdlərə daha humanist, dəstəkləyici, ruhlandırıcı şərait yaratsın. Təlim prosesində əməkdaşlıq o vaxt mümkündür ki, hər iki tərəf arasında (müəllim-şagird, şagird-şagird) inam, hörmət, dostluq və məhəbbət olsun. Bu komponentlərə əməl olunmadan interaktiv təlimdə əməkdaşlıqdan danışmaq olmaz. Bunlar da humanistləşdirmə və demokratikləşdirmə prosesinin əsas şərtləridir. Beləliklə, aydın olur ki, interaktiv təlim təhsil islahatının prinsipləri üzərində qurulur.

Unutmaq olmaz ki, təlim prosesində kiçikyaşlı şagirdlərin fəallığının yüksəldilməsində müəllim amili ilə yanaşı valideyn amilinin də özünəməxsus yeri vardır. Valideynin şagirdin təlim həyatındakı yerini dərinləşdirmək və inkişaf etdirmək sinif müəllimindən asılıdır. Müəllim

[1] Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997, s.76

validеynə şagird qarşısındakı məsuliyyət və öhdəliklərini bildirməlidir. Lazım olduqda belə keçilən hər mövzu üzrə validеyni maarifləndirməlidir. Bu, təlim prosesində tələblərdə vahidlik prinsipinin gözlənilməsinə şərait yaradır. Yəni həm müəllim, həm də evdə validеyn şagirdə məsələyə eyni həll üsulu ilə yanaşmağı göstərir.

**Tədqiqatın öyrənilmə səviyyəsi:** Aparılan araşdırmalar göstərir ki, uşağın həyatında oxumağı və yazmağı öyrənmək (və ya bilmək) dünya-görüşünün formalaşmasına güclü təsir edir. Təbii ki, uşaqların əksəriyyəti bu bacarıqlara məktəbdə yiyələnir. Uşaqda məktəbə və oxumağa qarşı həvəs yaratmaq valideynlərin borcudur. Əgər uşaq ailədə daim kitab, qəzet, jurnal oxuyan valideynlərin əhatəsində böyüyərsə, bu, onda oxumaq həvəsini artırmış olar. Beləliklə, qeyd edə bilərik ki, ailə üzvlərinin və ev şəraitinin uşağın təlim həyatındakı fəallığında və məktəbə getmək həvəsinin yaranmasında çox mühüm yeri vardır.

Dünya təlim-tərbiyə sistemində ənənəvi təlim prosesini interaktiv və müasir təlimin əvəz etməsi bu gün müəllim-şagird, şagird-şagird, müəllim-valideyn, valideyn-şagird münasibətlərinin də müasir tələb və prinsiplər üzərində qurulmasını tələb edir. Təbii ki, dünya ölkələrinin hər biri bu problemə öz cəmiyyətlərində olan qanunauyğunluqlar çərçivəsində yanaşır. Bu baxımdan Azərbaycan Respublikasında belə məsələlərin milli zəmin üzərində həlli, milli və bəşəri dəyərlərin vəhdətdə nəzərə alınması təqdirəlayiqdir.

**Tədqiqatın obyekti** təlim prosesində kiçikyaşlı məktəblilərin təlim fəallığının yüksəldilməsidir.

**Tədqiqatın predmetini** təlim prosesində kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsində əməkdaşlıq prinsipindən istifadə üzrə işin sistemi təşkil edir.

**Tədqiqatın məqsədi** ibtidai sinifdə şagirdlərin təlim keyfiyyətini yüksəltmək məqsədilə müəllim-şagird və valideynlərin qarşılıqlı əmək-daşlığından istifadənin, habelə kurikulumun tələbi olan şagirdyönümlü təlim prosesinin təşkili yollarını müəyyənləşdirməkdir.

**Tədqiqatın** məqsədindən irəli gələrək aşağıdakı **vəzifələri** müəyyənləşdirmişik:

- fəallıq anlayışının mahiyyəti və məzmununu tədqiq etmək;

-kiçikyaşlı məktəblilərin təlim fəallığının səviyyəsini öyrənmək;

- problem baxımından kiçikyaşlı məktəblilərin təlim fəallığına təsir edən amilləri müəyyənləşdirmək;

-ibtidai siniflərdə əməkdaşlıq prinsipindən istifadənin imkan və yollarını müəyyənləşdirmək;

-elmi və pedaqoji-psixoloji ədəbiyyatda problemin qoyuluşunu öyrənmək;

-problem baxımından dünya təcrübəsinin öyrənilməsi və tətbiqi;

-problem baxımından fənn kurikulumlarının hansı səviyyədə tətbiq olunmasının öyrənilməsi;

-pedaqoji eksperimenti təşkil etmək və nəticələri ümumiləşdirmək.

**Tədqiqatın fərziyyəsi:** İbtidai siniflərdə təlim prosesi əməkdaşlıq prinsipi (müəllim-şagird-valideynin qarşılıqlı əməkdaşlığı) üzərində məqsədəuyğun, ardıcıl və sistemli qurularsa, kiçikyaşlı məktəblilərin təlim fəallığı və təlim keyfiyyəti yüksələr.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq olunan prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları** məktəb sənədlərinin və təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi, müşahidə, müsahibə, anket-sorğu, reytinq, təhlil-tərkib, pedaqoji eksperimentdir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, təlim prosesində kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsində əməkdaşlıq prinsipindən istifadə imkanları və yolları müəyyənləşdirilmiş, problem baxımından fənn kurikulumları öyrənilmiş, tətbiqi xüsusiyyətləri tədqiq edilmiş, işin təşkilinin elmi sistemi yaradılmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti:** Tədqiqatdan əldə olunmuş elmi nəticələr pedaqogika elmini, o cümlədən ibtidai təhsil pedaqogikası və metodikasını nəzəri müddəalarla zənginləşdirir. İbtidai sinif şagirdlərinin dərs fəallığının yüksəldilməsi baxımından əməkdaşlıq prinsipi üzrə işin sisteminin yaradılması, müasir pedaqoji ədəbiyyatların təhlili yeni konseptual ideyalar formalaşdırır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatdan əldə edilmiş nəticələrdən fənn kurikulumlarının təkmilləşdirilməsində, dərsliklərin, dərs vəsaitlərinin, elmi-metodik ədəbiyyatın hazırlanmasında istifadə oluna bilər. Eyni zamanda qazanılmış elmi nəticələr müəllim, şagird və valideyn münasibətlərinin dövrün tələblərinə uyğun ardıcıl tənzimlənməsinə şərait yaradır.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1) ibtidai siniflərdə dərs prosesində əməkdaşlıq prinsipindən məqsədyönlü, ardıcıl və sistemli istifadə təlim keyfiyyətinin yüksəldilməsinə təsir göstərir;

2) müəllim-şagird, şagird-şagird, müəllim-valideyn, şagird-valideyn münasibətlərinin düzgün qurulması kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsinin əsas şərtidir;

3) kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsində əməkdaşlıq üzrə işin imkan və yollarının müəyyənləşdirilməsi təlim prosesinin optimallaşdırılmasında, şagirdlərlə yüksək əxlaqi keyfiyyətlərin formalaşdırılmasında mühüm rol oynayır.

**Tədqiqatın aprobasiyası:** Tədqiqatın əsas nəticələri müvafiq olaraq tələb edilən elmi jurnallarda 10 məqalə çap edilmiş, habelə doktorantların respublika və beynəlxalq konfranslarında məruzələr edilmiş, AMİ-nin pedaqogika kafedrasının seminarlarında, iclasında öz əksini tapmışdır.

**Tədqiqatın quruluşu:** Dissertasiya giriş, iki fəsil, səkkiz yarımfəsil, nəticə və təkliflər, əlavələr və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**“Giriş”də** mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, fərziyyəsi, metodları, elmi yeniliyi, nəzəri-metodoloji əsasları ilə yanaşı mövzunun öyrənilmə dərəcəsi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunan müddəalar, tədqiqatın aprobasiyası və quruluşu öz əksini tapmışdır.

Dissertasiyanın **birinci fəsli “Kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsində əməkdaşlıq prinsipinin nəzəri və praktik məsələləri”** adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir. I yarımfəsil ***“Fəallıq anlayışının mahiyyəti və məzmunu”*** adlanır. Ənənəvi təlimdən fərqli olaraq interaktiv təlim prosesində müəllim və şagirdin qarşılıqlı əməkdaşlığı gözlənilir. Müəllim şagirdlərə yeni materialı sərbəst şəkildə mənimsəmələri üçün şərait yaradır. İnteraktiv təlimdə müəllimin rolu bələdçi, istiqamətverici olur. Burada müəllim şagird qarşısına problem qoyur, şagird onu tədqiq edir, müəyyənləşdirir və biliklərə yiyələnir. Yəni, əməkdaşlıq şəraitində fəallıq göstərərək öyrənir.

İnsanda aktivliyin, fəallığın özünü göstərməsi üçün əsas şərt düzgün mühitin təşkil olunmasıdır. Təşkil olunma nə qədər yüksəkdirsə, fəallıq da bir o qədər artır. Çünki belə mühitdə insanın tutduğu mövqe və qarşıya qoyduğu məqsəd onun üçün aydın olur. Mühitin təşkil olunması zamanı passivliyi aktivliyə də çevirmək olar.

Ənənəvi təlim prosesində kiçikyaşlı məktəblilərin təlim fəallığının qarşısını alan bir sıra nöqsanlar mövcuddur:

- təlim prosesində öyrənilən bilikləri, qaydaları, teoremləri korkoranə əzbərlətmək;

- şagird-müəllim, şagird-şagird arasında düzgün münasibətin qurulmaması;
- konkret mövzu üzrə əyani vəsaitlərin azlığı, dərsliklərdən düzgün istifadə edilməməsi;
- dərsdə şagirdlərin meyl və maraqlarının nəzərə alınmaması;
- verilən tapşırıqların yoxlanılmasında eyni üsul və vasitələrdən istifadə;
- şagirdlərin yaradıcılıq fəaliyyətinin düzgün təşkil olunmaması.

II yarımfəsil ***"Təlim prosesində əməkdaşlıq prinsipinin mahiyyəti"***dir. İbtidai siniflərdə əməkdaşlıq prinsipinə əməl etmək daha vacibdir. Çünki təlim prosesində kiçik yaşlıların qayğıya, səmimiyyətə, özünə inama daha çox ehtiyacı vardır. Hər bir şagird şəxsiyyətinə hörmətlə yanaşıldığını, müəllim tərəfindən qiymətləndirildiyini, ona böyük qayğı göstərildiyini duyarsa, təlim prosesində yüksək həvəslə iştirak edər.

Əməkdaşlıq prinsipinin əsasını məktəb, cəmiyyət və ailənin birgə əməkdaşlığı təşkil edir. Əməkdaşlıq prinsipi yalnız demokratikləşdirilmiş təhsil proqramında öz əksini tapır. Təlim prosesində əməkdaşlıq dedikdə daha fəal və öhdəlikli cəlb olunma, qarşılıqlı, birgə fəaliyyət başa düşülür. Şagirdlər birgə fəaliyyət zamanı daim məsuliyyət daşıyırlar və hər hansı bir işdə əməkdaşlıq edə bilirlər.

Pedaqoji prosesdə əməkdaşlıq dedikdə, təkcə müəllim–şagird münasibətləri deyil, həmçinin müəllim–müəllim, müəllim–valideyn, şagird–şagird, valideyn–şagird münasibətləri də nəzərə alınmalıdır.

III yarımfəsil ***"Mövcud elmi-pedaqoji ədəbiyyatda problemin qoyuluşu və təhlili"*** adlanır. Tədqiqat işinin arzuolunan səviyyədə araşdırılması üçün mövcud elmi–nəzəri, metodik – təcrübi ədəbiyyatları təhlil etmişik. Problemin mövcud elmi–pedaqoji ədəbiyyatda təhlilini üç istiqamətdə aparmağı irəli sürdük: 1) təlim prosesində kiçik yaşlıların təlim fəallığı, 2) təlim prosesində əməkdaşlıq mühiti və 3) onların qarşılıqlı vəhdəti. Çünki öyrənmə öz məzmununa görə mürəkkəb, xarakterinə görə yaradıcı fəaliyyət olduğundan, müasir şagirdlərdə müstəqilliyin inkişafı indi təlimin məcburililiyindən çox, marağı, şüurluluğu, məsuliyyət hissini nəzərdə tutur. İndi məktəbin, müəllimin qarşısında duran başlıca məsələ təkcə necə öyrətmək deyil, həm də məktəbliləri fəal və məsuliyyətli fəaliyyətə necə həvəsləndirməyə təhrik etməkdir.

IV yarımfəsil ***"Problem baxımından məktəb təcrübəsinin öyrənilməsi"*** adlanır. Problem baxımından məktəb təcrübəsinin öyrənilməsi və təhlili üçün müəllimlər, şagirdlər və valideynlərlə anket-sorğu keçirməyi

məqsədəuyğun hesab etdik. Həmçinin bəzi ümumtəhsil məktəblərində müəllim, şagird və valideynlərlə müsahibələr keçirmişik. Bu məqsədlə həm Bakı şəhərində, həm də Xızı rayonunda yerləşən (Bakının Xətai rayonundakı 64 №-li, Nərimanov rayonundakı 178 №-li, 193 №-li, Səbail rayonundakı 132-134 №-li tərdris kompleksi, Nizami rayonundakı 227 №-li məktəb, Xızı rayonu Mikayıl Müşfiq adına Giləzi orta məktəbi) məktəblərdə müşahidə, müsahibə və anket-sorğu keçirdik.

Mövcud pedaqoji təcrübənin öyrənilməsi sübut edir ki, tədris prosesinin fəallaşdırılmasında başlıca rol oynayan fəal təlim metodlarından, forma və vasitələrindən hələ də yaradıcılıqla istifadə olunmur. Bu da şagirdlərin biliyinin, fəallığının yüksəldilməsinə mənfi təsir göstərir. Problem baxımından məktəb təcrübəsinin öyrənilməsi və təhlili üçün müəllimlər, şagirdlər və valideynlərlə anket-sorğu keçirməyi məqsədəuyğun hesab etdik. Həmçinin bəzi ümumtəhsil məktəblərində müəllim, şagird və valideynlərlə müsahibələr keçirmişik. Bu məqsədlə həm Bakı şəhərində (Bakının Xətai rayonundakı 64 №-li, Nərimanov rayonundakı 178 №-li, 193 №-li, Səbail rayonundakı 132-134 №-li tərdris kompleksi, Nizami rayonundakı 227 №-li məktəb), həm də Xızı rayonunda yerləşən, (Mikayıl Müşfiq adına Giləzi orta məktəbi) məktəblərdə müşahidə, müsahibə və anket-sorğu keçirdik.

Pedaqoji prosesi öyrənərkən ilk öncə müəllim–şagird münasibətlərinin nə dərəcədə düzgün qurulmasını müəyyənləşdirmək vacibdir. Çünki müəllim dərsin təşkilatçısı, aparıcısı və istiqamətləndiricisidirsə, şagird bu işlərin nə dərəcədə uğurlu həyata keçirildiyinin göstəricisidir. Məhz, buna görə də onlar arasında olan qarşılıqlı münasibətin həm müəllim, həm də şagird tərəfindən öyrənilib təhlil edilməsini məqsədəuyğun saydıq.

İbtidai siniflərdə müəllim-şagird münasibətlərinin şagird fəallığına nə dərəcədə təsiri etdiyini öyrənmək məqsədi ilə aşağıdakı anket-sorğunu keçirdik:

1. Dərsdə hansı təlim metodlarına üstünlük verirsiniz?

a) ənənəvi b) interaktiv c) fəal

2. Dərsdə şagirdlərin təlim fəallığını yüksəltmək üçün aşağıda göstərilənlərin hansını nəzərə alırsınız?

1)fərdi sorğu;

2) şagirdlərin maraq və arzularının nəzərə alınması;

3) qruplarda iş;

4) differensiyallaşdırma;

5) sual vermək.

a) 1,2,5 b) 2,3,5 c) 2,3,4

3. Dərsdə şagirdlərin əməkdaşlığını qurmaq üçün hansı təlim formasına üstünlük verirsiniz?

a) fərdi  b) qrup  c) kollektiv

4. Sizin sinifdə şagird kimdir?

1) dinləyici;
2) tədqiqatçı;
3) şəxsiyyət;
4) obyekt;
5) fəal dinləyici;
6) öyrənən;
7) öyrənən və öyrədən.

a) 2,3,5,7  b) 1,3,4,6  c) 1,4,5,6

5. Sinifdə hansı münasibətlər sisteminə üstünlük verirsiniz?

1) 


2) 


3) 


4) 


5) 


6) 

a) 3,4,6 b)1,2,5 c)1,5,6

6. Tapşırığı yerinə yetirərkən səhvi olan şagirdlərə münasibətinizi necə bildirirsiniz?

1) cəzalandırıram;
2) fərdi yanaşmağa çalışıram;
3) tapşırığı yenidən izah edirəm;
4) tapşırığa uyğun tapşırıq verirəm;
5) yeni tapşırığa keçirəm.

a) 1,2,3 b) 2,3,4 c) 1,3,5

7. Valideynlərlə nə zaman görüşürsünüz?

1) şagirdin problemi olduqda;
2) şagirdlərin uğuru olduqda;
3) çalışıram tez-tez görüşməyim;
4) valideyn istəyəndə.

a) 1,2 b) 2,3 c) 3,4

8. Sinifdə özünüzü "kim" hiss edirsiniz?

1) öyrədən;
2) istiqamətləndirən;
3) idarəedən.

Mövcud pedaqoji prosesdə kiçikyaşlı məktəblilərin fəallığına münasibətlər sisteminin nə dərəcədə təsiri olduğunu öyrənmək məqsədi ilə şagirdlərlə aşağıdakı sorğunu keçirdik:

1. Sinif rəhbərini niyə çox sevirsən?
a) yaxşı dərs öyrədir, b)mənimlə mehribandır, c) sevmirəm.
2. Bir problemin olduqda müəllimə müraciət edə bilirsən?
a) bəli, b) xeyr, c) bəzən
3. Sinifdə yoldaşların səninlə necə rəftar edir?
a) mehriban, b) pis, c) sinif yoldaşlarımla dostuq.
4. Valideynlərin məktəbə tez-tez gəlir?
a) bəli, b) xeyr, c) bəzən.
5. Valideynlərin səni cəzalandırır?
a) bəli, b) xeyr, c) bəzən.

Mövcud pedaqoji prosesdə kiçikyaşlı məktəblilərin fəallığına valideyn-müəllim və valideyn-şagird münasibətləri sisteminin nə dərəcədə təsir etdiyini öyrənmək məqsədi ilə valideynlərlə aşağıdakı sorğunu keçirdik:

1. Müəllimin uşağınıza bəslədiyi münasibət sizi qane edirmi?
a) bəli, b) xeyr, c) bəzən.
2. Sinif müəlliminin sizə münasibəti necədir?

a) istəmir sinifə gəlim, b) mehriban, c) soyuq.

3. Uşağınızla aranızda necə münasibət var?

a) mehriban, b) soyuq, c) uşağımla dostuq.

4. Məktəbdə özünüzü "kim" hiss edirsiniz?

a) qonaq;

b) əməkdaş;

c) maddi yardım göstərən.

Apardığımız müşahidələr və müsahibələr göstərir ki, ibtidai siniflərdə kiçikyaşlı məktəblilərin təlim fəallığının yüksəldilməsi və müəllimlərin əməkdaşlıq prinsipinə əməl etməsi hələ də vacib problem olaraq qalmaqdadır. Məsələn, Nizami rayonu 227 №li-li məktəbin 2$^{b}$ sinfində oxuyan Fəridə dərsi bildiyi halda danışmırdı. Onunla fərdi söhbət apardığımız zaman dərsi bildiyini, lakin müəllimdən çəkindiyi üçün danışmadığını öyrəndik. Müəllim dərsdə avtoritar münasibət qurduğu üçün şagirdlərin çoxu müəllim onları çağırmasa, dərsə münasibət bildirmirdilər.

İkinci fəsil **"Təlim prosesində əməkdaşlıq prinsipindən istifadə üzrə işin imkan və yolları"** adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir.

Bu fəslin birinci yarımfəsli ***"Kiçikyaşlı məktəblilərin təlim fəallığının yüksəldilməsidə müəllim-şagird münasibətlərinin formalaşmasının imkan və yolları"*** adlanır. Bəzi müəllimlər şagirdlərə doğruçuluq, səmimiyyət, səbrlilik, özündən böyük və kiçiklərə hörmət bəsləmək, inam kimi əxlaqi keyfiyyətlər haqqında nəsihət verirlər. Amma öz işlərində, rəftarlarında, münasibətlərində bu keyfiyyətlərə əməl etmirlər. Bu da kişikyaşlı məktəblilərdə əxlaqi keyfiyyətlər formalaşdırmaq əvəzinə, onların şəxsiyyətlərinin ikiləşməsinə səbəb olur. Bunun qarşısını almaq üçün müəllim ən nəcib insani keyfiyyətləri təcəssüm etdirməli və şagirdlər üçün ideala çevrilməlidir. Bir sözlə, qeyd edə bilərik ki, müəllim–şagird münasibətlərinin düzgün istiqamətlənməsində müəllimin sözü ilə əməlinin vəhdət də olması vacibdir.

II yarımfəsil ***"Kiçikyaşlı məktəblilərin təlim fəallığının yüksəldilməsində şagird-şagird münasibətlərinin formalaşmasının imkan və yolları"*** adlanır. Tədqiqatlar göstərir ki, 6–7 yaşlı şagirdlər şifahi təlimatla diqqətini bir obyektdən digərinə keçirirlər. İxtiyari diqqətin inkişafında şagird fəaliyyətinin düzgün təşkilinin də böyük rolu vardır. Kiçikyaşlı məktəblinin təlim fəaliyyətində diqqətli olması zəruridir. Məktəbli təlim prosesində nə qədər diqqətli olsa, təlim fəaliyyətində müvəffəqiyyət qazanmasına xüsusi şərait yaratmış olar. İbtidai sinifdə müəllimin əməkdaşlıq prinsipinə əməl etməsi şagirdlərin biri–birinə diqqət və

hörmətlə yanaşmasına təsir edir. Şagirdlər arasındakı münasibətin və ünsiyyətin qarşılıqlı hörmət, sevgi üzərində qurulmasına şərait yaradır.

III yarımfəsil ***"Kiçikyaşlı məktəblilərin təlim fəallığının yüksəldilməsidə müəllim-valideyn, şagird-valideyn münasibətlərinin formalaşmasının imkan və yolları"*** adlanır. Uşaqlarda ilk qayda-qanunların mənimsədilməsinə ailədən başlanılır. Ailənin nüfuzunun uşaqların mənəvi dünyasına inkarolunmaz təsiri vardır. Ailə üzvləri bilməlidirlər ki, hər bir uşaq təkrarolunmazdır. Valideynlər öz övladları ilə yaxın olmalı, onların psixoloji və fərdi xüsusiyyətlərini yaxşı bilməli, qabiliyyətlərini vaxtında aşkara çıxarıb, inkişaf etdirməyə çalışmalıdırlar.

Ailənin həyat tərzi uşağın tərbiyəli, əxlaqlı, intizamlı, sözəbaxan kimi böyüməsinə və yaxud bütün bunların əksinə fərqlənməsinə səbəb olur.

Təcrübə göstərir ki, ibtidai siniflərdən başlayaraq bəzi şagirdlər zəif oxuyur, intizamsızlıq edir, davranış qaydalarına ciddi əməl etmək istəmirlər. Bunun bir sıra səbəblərini göstərə bilərik: məktəb və valideynlərin zəif ittifaqda olması, valideynlərin uşaqlar üzərində zəif nəzarəti, uşaqların ərköyün böyüməsi, ailə və məktəbin təlim-tərbiyə prosesində vahid tələbi gözləməməsi və s.

IV yarımfəsil isə ***"Pedaqoji eksperimentin təşkili və nəticələri"*** adlanır. Eksperimentin birinci mərhələsini təlim prosesində kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsində müəllim-şagird, şagird-şagird, müəllim-valideyn, şagird-valideyn münasibətlərinin rolunun öyrənilməsinə istiqamətləndirmişik. İbtidai siniflərdə bu münasibətlərin təcrübədə müsbət və nöqsanlı cəhətləri aşkara çıxarıldı. Problem baxımından məktəblərdə mövcud vəziyyətin öyrənilməsi məqsədilə həm müşahidə, həm müsahibə, həm də anket sorğusundan istifadə etdik. 6 məktəbdə mövcud vəziyyətin öyrənilməsi üsullarını 51 müəllim, 302 şagird və 87 valideynlə keçirdik. Müəllimlərlə keçirilən sorğunun nəticəsinin təhlili göstərir ki, kurikulumun əsas tələbi olmasına baxmayaraq, hələ də müasir təlim metodlarından istifadə edən müəllimlərin sayı azdır. Sorğunun ikinci sualında müəllimin hansı təlim formasına üstünlük verdiyi müəyyənləşdirildi.

Aparılmış tədqiqatlar göstərir ki, respublika məktəblərində müəllim-şagird-valideyn əməkdaşlığının gücləndirilməsi çox vacib məsələlərdəndir. Çünki kurikulumun, şəxsiyyətyönümlü təhsilin əsas tələblərindən biri, məhz müəllim-şagird, şagird-şagird, müəllim-valideyn, valideyn-şagird arasındakı subyekt münasibətlərinin formalaşdırılmasıdır. Onu da qeyd edək ki, eksperimentin əvvəlində keçirdiyimiz sorğunun nəticələri bizi qane etməsə də, sonda bu nəticələrdə inanılmaz dərəcədə müsbət istiqamətə doğru dəyişikliklər yarandı.

Keçirdiyimiz eksperimentin nə qədər uğurlu olduğunu öyrənmək məqsədilə müəyyənləşdirici mərhələdə apardığımız anket-sorğunu yoxlayıcı mərhələdə də apardıq. Və həqiqətən böyük fərqlər müşahidə etdik. Müqayisə üçün cədvəllərdə yoxlayıcı mərhələnin nəticələrini veririk.

**Şagirdlərlə keçirilən anket sorğusunun nəticələri**

Cədvəl 1.

| № | Məktəb № | Şagirdlərin sayı | Suallara verilən düzgün cavabın sayı və %-i | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | I sual | | | II sual | | | III sual | | | IV sual | | | V sual | | |
| | | | a | b | c | a | b | c | a | b | c | a | b | c | a | b | c |
| 1 | M.Müşfiq adına Giləzi orta məktəbi | 37 | 10 (27,2) | 20(54,03) | 7(18,77) | 9(24,32) | 20(54,05) | 8(21,63) | 10(27,2) | 18(48,54) | 9(24,20) | 12(32,43) | 9(24,32) | 16(43,25) | 18(48,64) | 12(32,44) | 7(18,92) |
| 2 | Bakı şəhəri 64 №-li | 45 | 11(24,44) | 24(53,33) | 10(22,23) | 11(24,45) | 22(48,88) | 12(26,67) | 14(31,11) | 20(44,45) | 11(24,44) | 16(35,6) | 11(24,4) | 18(40) | 22(48,89) | 11(24,45) | 12(26,66) |
| 3 | Bakı şəhəri 132-134 №-li tədris kompleksi | 63 | 17(26,98) | 38(60,33) | 8(12,69) | 13(20,63) | 33(52,39) | 17(26,98) | 16(25,3) | 31(49,4) | 16(25,3) | 28(44,45) | 18(28,57) | 17(26,98) | 28(44,45) | 16(25,39) | 19(30,16) |
| 4 | Bakı şəhəri 178 №-li | 59 | 10(16,96) | 31(52,54) | 18(30,5) | 9(15,26) | 28(47,45) | 22(37,29) | 8(13,56) | 33(55,94) | 18(30,5) | 26(44,06) | 12(20,35) | 21(35,59) | 31(52,54) | 7(11,87) | 21(35,59) |
| 5 | Bakı şəhəri 193 №-li | 56 | 6(10,72%) | 42(75%) | 8(14,28%) | 16(28,57) | 23(41,08) | 17(30,35) | 12(21,42) | 29(50,18) | 16(28,4%) | 19(43,52 | 16(27,34) | 11(29,14) | 23(41,05) | 9(16,12%) | 24(42,83) |
| 6 | Bakı şəhəri 227 №-li | 42 | 7(16,67) | 25(59,53) | 10(23,8) | 10(21,4) | 28(51,42) | 12(27,18) | 9(21,43) | 22(52,38) | 11(26,19) | 17(40,47) | 11(26,19) | 14(33,34) | 20(47,62) | 8(19,04) | 14(33,34) |

Valideynlərlə keçirilən anket sorğusunun nəticələri statistik göstəricilər baxımından problemin aktualığını artırır.

### Valideynlərlə keçirilən anket sorğusunun nəticələri

Cədvəl 2.

| № | Məktəb № | Valideynlərin sayı | Suallara verilən düzgün cavabın sayı və %-i | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | I sual | | | II sual | | | III sual | | | IV sual | | |
| | | | a | b | c | a | b | c | a | b | c | a | b | c |
| 1 | M.Müşfiq adına Giləzi orta məktəbi | 10 | 4(40%) | 3(30%) | 3(30%) | 3(30%) | 4(40%) | 3(30%) | 2(20%) | 4(40%) | 4(40%) | 3(30%) | 4(40%) | 3(30%) |
| 2 | Bakı şəhəri 64 №-li | 12 | 5(41,66) | 4(33,34) | 3(25%) | 3(25%) | 4(33,34) | 5(41,66) | 3(25%) | 4(33,34) | 5(41,66) | 3(25%) | 5(41,66) | 4(33,34) |
| 3 | Bakı şəhəri 132-134 №-li tədris | 18 | 5(27,78) | 7(38,88) | 6(33,34) | 7(38,88) | 6(33,34) | 5(27,78) | 5(27,78) | 8(44,44) | 5(27,78) | 8(43,34) | 7(34,66) | 3(22%) |
| 4 | Bakı şəhəri 178 №-li | 16 | 6(37,5) | 5(31,25) | 5(31,25) | 6(37,5) | 4(25%) | 6(37,5) | 5(31,25) | 5(31,25) | 6(37,5) | 6(37,5) | 5(31,25) | 5(31,25) |
| 5 | Bakı şəhəri 193 №-li | 17 | 5(29,41) | 7(41,18) | 5(29,41) | 8(44,15) | 4(34,42) | 3(21,43) | 5(29,42) | 6(35,29) | 6(35,29) | 5(29,41) | 7(41,18) | 5(29,41) |
| 6 | Bakı şəhəri 227 №-li | 14 | 6(42,86) | 4(28,57) | 4(28,57) | 4(28,58) | 5(35,71) | 5(35,71) | 4(28,58) | 5(35,71) | 5(35,71) | 4(28,57) | 6(42,86) | 4(28,57) |

Keçirdiyimiz eksperimentin nəticələri dissertasiyada irəli sürülmüş problemin aradan qaldırılma yollarının doğruluğunu tamamilə sübuta yetirmişdir. Nəticələrin təhlili göstərir ki, təlim-tərbiyə prosesində müəllim, şagird və valideyn əməkdaşlığının həyata keçirilməsi kiçikyaşlı məktəblilərin təlim fəallığının yüksəldilməsində mühüm əhəmiyyətə malikdir.

İbtidai sinflərin (I, II, III, IV siniflər) 240 şagirdi arasında keçirilən eksperimentin nəticələri göstərir ki, müəllim-şagird əməkdaşlığının nəzərə alınması kiçikyaşlı şagirdlərin təlim fəallığının yüksəlməsinə güclü şəkildə təsir göstərmişdir. Məsələn, əgər eksperimentdən əvvəl 240 şagirdin 160-si gündəlik, qalanları isə arada bir dərsə hazır olurdusa, eksperimentin nəticəsində 210-a yaxın şagird gündəlik dərsə hazır olurdu.

Ümumtəhsil məktəblərində "sinifdə münasibətlərin tənzimlənməsi kabineti"nin yaradılması məktəbdə şagirdlər arasındakı insani münasibətlərin yaradılıb, inkişaf etdirilməsinə xidmət edəcəkdir. Məktəblərdə bu kabinetin yaradılmasına çox böyük ehtiyac vardır. Çünki məktəblərdə fəaliyyət göstərən psixoloqlar demək olar ki, yalnız nəzəri fəaliyyət göstərirlər, heç bir praktik fəaliyyətləri yoxdur. Hətta, elələri də var ki, keçən ilin fəaliyyət planını köçürüb növbəti ilə tətbiq edirlər.

Sinifdə əməkdaşlıq prinsipi üzrə işin sistemi dedikdə, aşağıdakı sxemi göstərə bilərik:

**Sinifdə əməkdaşlıq prinsipi**




Sxem 1.

Tədqiqatın **nəticələri** bunlardır:

1. Azərbaycan Respublikasında məqsədyönlü təhsil islahatlarının aparıldığı hazırkı dövrdə kiçikyaşlı məktəblilərin təlim fəallığının yüksəldilməsi və bu məqsədlə əməkdaşlıq prinsipindən (müəllim-şagird-valideyn əməkdaşlığı) istifadə mühüm əhəmiyyət kəsb edir.

2. Tədqiqat göstərdiki ki, fəlsəfədə fəallıq-materiyanın əsasında dayanan, onun dəyişməsinə səbəb olan anlayış kimi izah olunur.

3. Tədqiqat göstərdi ki, təlim prosesində əməkdaşlıq dedikdə daha fəal və öhdəlikli cəlb olunma, qarşılıqlı, birgə fəaliyyət başa düşülür. İbtidai siniflərdə təlim prosesində əməkdaşlıq prinsipi ilk növbədə müəllim-şagird, müəlli-müəllim, müəllim-valideyn, şagird-şagird və valideyn-şagird münasibətlərini nəzərdə tutur.

4. Araşdırmalar göstərdi ki, məktəblilərin təlim fəallığının yüksəldilməsilə bağlı bir sıra tədqiqatlar aparılmışdır.

5. Problem baxımından fənn kurikulumlarının, ibtidai sinif dərslik komplektlərinin təhlili göstərdi ki, hazırkı şəraitdə kiçikyaşlı məktəblilərin təlim fəallığının yüksəldilməsində əməkdaşlıq prinsipinin tətbiqi imkanları, nəzəri mənbələr genişdir.

6. Tədqiqat göstərdi ki, ibtidai siniflərdə problemin mahiyyətini dərindən dərk edən müəllimlər az deyil. Onlar öz işlərini müasir tələblərə uyğun şəkildə həyata keçirir, müəllim-şagird və valideyn əməkdaşlığını daim diqqətdə saxlayırlar.

7. Araşdırmalar göstərdi ki, kiçikyaşlı məktəblilərin təlim fəallığının yüksəldilməsində müəllim-şagird münasibətlərinin formalaşmasının imkan və yolları genişdir.

8. Tədqiqat göstərdi ki, şagird-şagird, müəllim-valideyn və şagird-valideyn münasibətlərinin formalaşdırılmasının imkan və yollarının müəyyənləşdirilməsi kiçikyaşlı məktəblilərin təlim fəallığının yüksəldilməsinə şərait yaradır.

9. Tədqiqat göstərdi ki, valideyn və müəllim kollektivinin əməkdaşlığı aşağıdakı məsələləri əhatə etdikdə şagirdlərin fəallığı daha da artır.

10. Tədqiqat göstərdi ki, təlim prosesində kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsində əməkdaşlıq prinsipindən istifadəyə məqsədəuyğun, ardıcıl və sistemli yanaşdıqda əldə olunan nəticələr daha effektli, təsirli olur.

Tədqiqatdan əldə etdiyimiz nəticəyə uyğun aşağıdakı **təklifləri** irəli sürə bilərik:

1.Kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsində əməkdaşlıq prinsipindən istifadə ilə bağlı yeni məzmunlu nəzəri-metodik ədəbiyyatların nəşri məqsədəuyğundur.

2.Təlim prosesində əməkdaşlıq prinsipindən istifadə ilə bağlı elmi seminarların, konfransların keçirilməsi yaxşı olardır.

3.Ali və orta ixtisas məktəblərində təkmilləşdirmə, ixtisasartırma kurslarında təlim prosesində əməkdaşlıq prinsipinin tətbiqinə dair xüsusi fənnin tədrisi məqsədəuyğun olardır.

4. İbtidai siniflərdə müəllim-şagird-valideyn münasibətlərinin düzgün, demokratik, obyektiv qurulması üçün məqsədəuyğun mövzularda maarifləndirici televiziya və radio verlişləri hazırlamaq, müvafiq saytlarda forumların (sorğuların) keçirilməsi və s. faydalı olardı.

5. Məktəblərdə ibtidai sinif müəllimləri və valideynlərini bu istiqamətdə maarifləndirici kabinetlərin yaradılması (psixoloq nəzarəti də ola bilər), müəllimlərin dərslərinin dinlənilməsinə nəzarətin yüksəldilməsi məqsədəmüvafiq olardı.

6. Müəllimlərə dərsdə müasir təlim metodlarından süni, qeyri-elmi istifadənin lazımsız olduğunu göstərmək və problemə yaradıcı yanaşmaq, şagirdlərin demokratik mühitdə, humanist münasibətin formalaşdığı sinifdə öyrənməsi daha faydalı olardı.

Dissertasiyanın əsas məzmunu və nəticələri müəllifin çap olunmuş aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1.Təlim prosesində müəllimin fəaliyyəti // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2009, №2, s.28-33

2. Kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsində ailənin rolu // Pedaqoji Universitetin Xəbərləri, 2009, №5, s.370-375

3. İbtidai sinif müəllimlərinin əməkdaşlıq bacarığının səmərəliliyi / Qafqaz universitetində keçirilən Ümummulli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş gənc tədqiqatçıların ümumrespublika elmi konfransının materialları. Bakı, 06-07 may 2010, s.416-417

4. Müəllimin əməkdaşlıq bacarığının vacibliyi // Məktəbəqədər və ibtidai təhsil, 2010, №2, s.12-17

5. Təlim prosesinin keyfiyyətinin yüksəldilməsində müəllim-şagird münasibətlərinin rolu // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2010, №3, s.16-21

6. Təlim prosesində kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsinə təsir edən amillər // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2010, №6, s.243-250

7. Təlim prosesində tələbələrin fəallığının yüksəldilməsi vasitələri / “Boloniya prinsiplərinin tətbiqi təcrübəsi” respublika elmi-praktik konfransın materialları. Bakı, 14-15 dekabr, 2010, s.62-64

8. Təlim prosesinin səmərəliliyinin yüksəldilməsində müəllim-şagird-valideyn əməkdaşlığının rolu / “Pedaqogika elminin inkişafında yeni mərhələ” beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, BDU, 28-29 iyun, 2011, s. 279

9. Təlim prosesində kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsində dərketmə üsullarından istifadə məsələləri / Doktorant və gənc tədqiqatçıların XV respublika elmi konfransının materialları. Bakı, 2011, s.257-259

10. Kurikulum qloballaşan təhsilin göstəricisi kimi / “Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri” Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə və müasir Azərbaycan dövlətçiliyinin 93 illiyinə həsr olunmuş beynəlxalq konfransın materialları. Bakı, Azərbaycan Universiteti, 04-05 may 2011, s. 398-400

11. İbtidai sinif müəlliminin pedaqoji xüsusiyyətləri / “Müəllim hazırlığının müasir problemləri” beynəlxalq elmi konfransının materialları. Bakı, AMİ, 28-29 oktyabr 2011, s. 428-431

12. Təlim prosesinin keyfiyyətini yüksəldən əsas vasitələr // Azərbaycan məktəbi, 2011, №2, s.75-80

13. Превосходство принципа сотрудничества в процессе обучения // Казахский национальный педагогический университет имени Абай. Хабаршы вестник, Серия «Педагогические науки» Алматы, №2 (30), 2011, с.117-122

14. Təlim prosesində fəallıq anlayışının mahiyyəti // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2011, №4, s.54-59

15.Təlim prosesinin keyfiyyətini yüksəldilməsində müəllim-valideyn münasibətlərinin rolu // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2012, №4, s.12-15

16. Təhsil islahatlarında müəllim hazırlığına yeni yanaşmalar // “Müəllim hazırlığının müasir problemləri: təhsildə elmi və texnoloji innovasiyalar” II beynəlxalq konfransın materialları. Bakı, 26-28 noyabr 2012, s.280-283

17. Təhsil islahatlarında müəllim hazırlığına yeni yanaşmalar // “Müəllim hazırlama siyasəti və problemləri” Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş beynəlxalq simpoziumun materialları. Bakı,03-04 may 2013, s.104-105

18. İnklüziv təhsildə işləyən müəllimlərin tədris metodikası // "Azərbaycanda inklüziv təhsilin tətbiqi problemləri və onların aradan qaldırılması yolları" mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 02 may 2014, s.95-96

19. Müasir pedaqoji texnologiyalar // Ümummilli lider Heydər Əliyevin 91 illik yubileyinə həsr olunmuş "Cəmiyyət və təhsilin inkişaf strategiyası" mövzusunda keçirilmiş IV elmi-praktik konfransın materialları. Bakı, 05 may 2014, s.179-180

20. Təlim prosesində ibtidai sinif şagirdlərinə vətənpərvərliyin aşılanmasında əməkdaşlıq prinsipinin təsiri // Ümummilli lider Heydər Əliyevin 92 illik yubileyinə həsr olunmuş "Təhsilin inkişaf strategiyası və onun reallaşdırılması" mövzusunda keçirilmiş VII Respublika elmi-praktik konfransın materialları. Bakı,07 may 2015, s.509-512

**В.С. АЛИЕВА**

# Система работ использованию принципа сотрудничества повышении активности младъших школьников в процессе обучения

## Резюме

Диссертация состоит из введений, двух глав, восьми подглав, выводов и рекомендаций, дополнений и из списка используемых литератур. Первая глава диссертации называется "Теоретические и практические аспекты принципа сотрудничества в повышении активности школьников". Это глава состоит из 4-х подглав.

В процессе подготовки основывающейся на принципе сотрудничества учители и школьники выступают как субъекты в качестве партнера и в результате урок проходит активно и динамично. Каждый учитель, который, берет за основу сотрудничества в процессе обучения, показывает себя равноправной личностью с учениками и тем самом вносит свой вклад в формирование новых положительных качеств у них. В этом случае у школьника растет уверенность в себе, нестесняясь передает свое мнение, свободно задает вопросы, соглашается или не соглашается с ответами друзей, и так далее.

Вторая глава называется «Возможности и пути работы по использованию принципа сотрудничества в процессе обучения». Это глава состоит из четырех подглав.

Сотрудничества школьников младших классов друг с другом в процессе обучения приводить к тому, что они помогают друг другу, и у них начинает формироваться такие качества как правдивость, честность и скромность. Еще, веселое и бодрое настроение школьников младших классов на уроке, тоже влияет позитивно к их сотрудничеству друг с другом и к их деятельности в коллективе. А атмосфера в классе зависит от учителя, как от организатора урока.

В конце эксперимента были выявлены пути, как правильно построит отношении в целях повышения качества процесса обучения в классах и повышения активности обучения школьников младших классов.

**V.S.ALIYEVA**

## The system of using the principle of cooperation in promoting active participation of young schoolchildren in the process of learning

### Resume

Dissertation includes input, two chapters, eight sub, conclusions and recommendations, additions and used literature list.

The first chapter of the dissertation is called "The theoretical and practical aspects of the principle of cooperation in the promoting active participation of young schoolchildren”. This chapter consists of 4 subchapters.

In the process of training based on the principle of cooperation, teachers and students perform as a subject like partner and thanks to these the lesson passes through an active and dynamic. During the training, each teacher who based on cooperation showing himself co-equal persons with the student, that they have contributed to the formation of a new positive qualities. In this case, the student's self-confidence is growing, do not hesitate to convey his opinion, the question of free will, agree or disagree with his friends’ opinions or answers, and so on.

The second chapter is called "The opportunities and ways of the work on use of the principle of co-operation in the training process ". This chapter also consists of 4 subchapters.

To respect mutual of schoolchildren with themselves in the process of learning promote the formation of qualities such as help each other, truthfulness, honesty and humility. To be fun, energetic mood of small adults help their mutual relations and collective activities. The environment in the classroom depends on the teacher lesson organizer.

At the end of the experiment was found the ways to build right relationships for growing of the quality of training process in the primary classes’ and improve of the training activity of pupils.

**Министерство образования Азербайджанской Республики**
**Азербайджанский Государственный Педагогический Университет**

*На правах рукописи*

**ВУСАЛА САРДАР ГЫЗЫ АЛИЕВА**

# СИСТЕМА РАБОТ ИСПОЛЬЗОВАНИЮ ПРИНЦИПА СОТРУДНИЧЕСТВА ПОВЫШЕНИИ АКТИВНОСТИ МЛАДЪШИХ ШКОЛЬНИКОВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

5804.01-Общая педогогика, история педогогики и образованя

## А В Т О Р Е Ф Е Р А Т

На соискание ученой степени диссертации доктора философии по педагогика

БАКУ-2015